***Azərbaycan daha bir tarixi əhəmiyyətli uğura imza atdı. Belə ki, sentyabrın 26-da "Azerspace 2" peykimiz orbitə çıxarıldı. Bununla da kosmosda sayı üçə çatan peyklərimiz Azərbaycanın yüksək informasiya texnologiyaları sahəsinin inkişafına növbəti təkan verməklə yanaşı, həm də gənc ölkəmizin inkişaf etmiş kosmik dövlətlər cərgəsində öz layiqli yerini möhkəmləndirməsinə şərait yaradacaq. Bu əlamətdar hadisə Azərbaycanın hər gün artan gücünün göstəricisi kimi də yaddaşlara həkk olunacaq.***

# Azərbaycan dünyanın kosmik sənayesində öz mövqeyini möhkəmlədir






"Azerspace 2" peykinin orbitə çıxarılması böyük hadisədir. Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev bununla bağlı xalqa müraciətində peykimizin orbitə çıxarılmasını ölkəmizin daha bir qələbəsi, dövlətimizin növbəti uğuru kimi qiymətləndirmişdir. Son beş il ərzində Azərbaycanın orbitə 3 peyk çıxara bildiyini vurğulayan dövlət başçısı əlavə etmişdir ki, ölkəmiz bu gün dünyanın kosmik klubunun üzvüdür və dünyanın kosmik sənayesində öz mövqeyini möhkəmləndirir. "Peyklərin orbitə çıxarılması dövlətimizin gücünü göstərir, bizim siyasətimizi göstərir. Bizim artıq 3 peykimiz var", – deyən Prezident İlham Əliyev xüsusilə vurğulamışdır ki, "Azerspace 2" peykinin orbitə çıxarılması Azərbaycan Xalq Cümhuriyyətinin 100 illiyinə, Azərbaycanın dövlət müstəqilliyinə həsr edilir.

Qeyd etmək yerinə düşər ki, "Azerspace 2" peyki Fransız Qvianasında yerləşən Kuru kosmodromundan orbitə çıxarılmışdır. Peyk "Space Systems/Loral" (SSL) şirkəti tərəfindən yüksək etibarlı "SSL 1300" peyk platforması əsasında istehsal olunmuşdur. "Azerspace 1" peyki "Arianespace" şirkətinə məxsus "Ariane-5" daşıyıcı raketi ilə orbitə buraxılmış və startdan təqribən 42 dəqiqə sonra raketin gövdəsindən uğurla ayrılmışdır. Peyk geostasionar orbitdə 45° şərq uzunluğu orbital mövqeyində fəaliyyət göstərəcək. "Azerspace 2" peykinin orbitdə yanacaq ömrü minimum 20 il təşkil edəcək. "Azərkosmos" Açıq Səhmdar Cəmiyyətinin məlumatına görə, yeni peykin istismarı üçün Bakıda və Naxçıvan MR-də yerüstü infrastruktur yenilənmişdir. Orbitdəki sınaq prosesləri və yekun orbital mövqeyə yerləşdirilməsi uğurla başa çatdıqdan sonra peykin idarəçiliyi istehsalçı şirkət tərəfindən "Azərkosmos" ASC-yə təhvil veriləcək və bundan sonra peyk kommersiya fəaliyyətinə başlamaq üçün tam hazır vəziyyətdə olacaq.

Bu peyklərin çox böyük əhəmiyyəti var. Belə ki, "Azerspace 1" peyki Avropa, Mərkəzi və Cənub-Qərbi Asiya, Yaxın Şərq və Tropik Afrika ölkələrini əhatə edəcək. Yeni peyk "Azərkosmos"un xidmət spektrinin və fəaliyyət coğrafiyasının genişləndirilməsi ilə yanaşı, birinci telekommunikasiya peyki – "Azerspace 1" peykinin orbitdəki ehtiyatı olacaq. Peyk regionda dövlət və özəl qurumlara şəbəkə xidmətləri sahəsində artmaqda olan tələbləri qarşılamaq üçün yüksək texniki imkanlar, əlverişli əhatə zonası və keyfiyyətli xidmət təklif edəcək. "Azərkosmos" Açıq Səhmdar Cəmiyyəti əmindir ki, "Azerspace 2" peyki şirkətin tabiətinə görə kifayət qədər mühafizəkar və yüksək rəqabətli peyk xidmətləri bazarındakı dəyər təklifini və mövqeyini gücləndirəcək.

Prezident İlham Əliyev təbrikində peykin əhəmiyyətindən danışarkən vurğulamışdır ki, Azərbaycan informasiya təhlükəsizliyi baxımından daha da önəmli addım atır: "Bu gün peyklərimiz vasitəsilə Azərbaycan telekanalları dünyaya öz verilişlərini təqdim edə bilirlər. Bu gün Azərbaycan telekommunikasiya sahəsində xarici tərəfdaşlardan asılılığını tam aradan götürübdür", – deyən ölkə başçısı əlavə etmişdir ki, kadr hazırlığı üçün Azərbaycanın kosmik sənayesinin inkişafı önəmli rol oynayır. Prezident İlham Əliyevin sözlərinə görə, peykləri idarə edən kadrlar azərbaycanlı mütəxəssislərdir və onların böyük əksəriyyəti gənclərdir.

Dövlət başçımız kosmik sənayenin inkişafının bu sahədə beynəlxalq əməkdaşlığımızı da dərinləşdirdiyini diqqətə çatdırmış və bildirmişdir ki, Azərbaycan dünyanın bu sahədə böyük təcrübəyə malik olan aparıcı şirkətləri ilə sıx əməkdaşlıq edir. Cari ilin altı ayında "Azərkosmos" ASC tərəfindən 19 ölkəyə xidmət (peyk telekommunikasiya xidmətləri və optik peyk xidmətləri) ixrac edilmişdir. İqtisadi İslahatların Təhlili və Kommunikasiya Mərkəzinin departamentindən verilən məlumata görə, bu ilin altı ayında "Azərkosmos" ASC peyk və telekommunikasiya xidmətlərinin ixracından 12,7 milyon dollar məbləğində gəlir əldə etmişdir. Bundan başqa, ASC-nin xidmət ixracından əldə etdiyi gəlir onun ümumi gəlirlərinin 88 faizini təşkil etmiş, cari ilin iyun ayında isə ASC-nin xidmət ixracının dəyəri 1,6 milyon dollar olmuşdur.

Məlumat üçün bildirək ki, "Azərkosmos" ASC-nin cari ilin ilk yarısında xidmət ixracının həyata keçirdiyi ölkələr arasında Fransa liderlik edir. Prezident İlham Əliyevin təbrikində peyklərin kommersiya tərəfləri barədə danışarkən bildirmişdir ki, bu gün Azərbaycan öz məhsulunu ixrac edir və peyklərin fəaliyyəti nəticəsində ölkəmizə valyuta gəlir. "Azərbaycanın kosmik sənayedə əldə etdiyi uğurlar, eyni zamanda, qeyri-neft sektorumuzu inkişaf etdirir, qeyri-neft sənayemizi irəliyə aparır. Təsadüfi deyil ki, bu ilin səkkiz ayının göstəricilərinə görə, Azərbaycanda qeyri-neft sənayesi təxminən 11 faiz artmışdır".

Dövlət başçısının sözlərinə görə, "Azersky" müşahidə peyki vasitəsilə biz nəinki ölkəmizin, dünyanın istənilən nöqtəsində baş verən bütün hadisələri daim müntəzəm olaraq izləyə, nəzarət edə bilirik. Bundan başqa, Prezident İlham Əliyev "Azersky" peykinin Azərbaycanın müdafiə və hərbi potensialının gücləndirilməsi işində xüsusi rolu olduğunu da açıqlamış, ən əsası, bu peykin fəaliyyəti nəticəsində Azərbaycanın bu sahədə də xaricdən asılılığı tamamilə aradan qaldırdığını və bir çox ölkələr üçün peyk xidməti göstərdiyini vurğulamışdır.

Xatırladaq ki, "Azərkosmos" ASC Prezident İlham Əliyevin 2010-cu il 3 may tarixli sərəncamı ilə təsis edilmişdir. "Azərkosmos"un idarəçiliyində olan ilk milli peyki-miz – "Azerspace 1" telekommunikasiya peyki 8 fevral 2013-cü il tarixində Fransanın "Arianespace" şirkətinə məxsus "Ariane-5" daşıyıcı raketi vasitəsilə 46° şərq uzunluğu orbital mövqeyinə çıxarılmışdır. Peyk ABŞ-ın"Orbital Sciences" korporasiyası tərəfindən istehsal olunmuşdur. "Azerspace 1" peykinin qabaqcıl texnoloji dizaynı və çevik qoşulma imkanları sayəsində dünyada milyonlarla insan dayanıqlı informasiya və kommunikasiya xidmətlərinə çıxış imkanı əldə edə bilir. Bundan başqa, "Azərkosmos" "Azerspace 1" peyki vasitəsilə öz müştərilərinə yüksək etibarlı peyk əsaslı teleradio yayımı, DTH (Direct-to-Home), səs, video və məlumatların ötürülməsi xidmətlərini təqdim edir. "Azərkosmos" 2014-cü ildə dekabr ayından etibarən Azərbaycan və Fransa arasındakı strateji əməkdaşlıq çərçivəsində imzalanan müqaviləyə əsasən, ölkəmizin sayca ikinci peyki olan "Azersky" peykini təhvil almışdır. Bununla da "Azərkosmos" Yer səthinin məsafədən müşahidəsi üzrə kommersiya fəaliyyətinə başlamışdır. Sayca 3-cü olan "Azerspace 2" peykinin orbitə çıxarılması peyk xidmətlərinin etibarlılığını və rəqabətqabiliyyətliliyini təmin edəcək.

Məlumdur ki, son illər Azərbaycanda qeyri-neft sektorunun inkişafına xüsusi diqqət verilir. İqtisadiyyatın şaxələndirilməsi və yeni sənaye sahələrinin inkişafı ilə bağlı Azərbaycan hökuməti tərəfindən həyata keçirilən əsas layihələrdən biri də peyk layihəsidir. Bu baxımdan çoxməqsədli peyklərin orbitə buraxılması informasiya mübadiləsinin xarici ölkələrdən asılılığının aradan qaldırılması və informasiya təhlükəsizliyinin təmin edilməsi, eyni zamanda, ölkədə yeni iqtisadi sahələr üzrə mövcud insan ehtiyatları və intellektual potensialın inkişaf etdirilməsi, tam təchizatlı maddi-texniki bazanın yaradılması, elm tutumlu yeni layihələrin həyata keçirilməsi və nəticə etibarilə innovasiya yönümlü iqtisadiyyatın formalaşdırılması istiqamətində aparılan işlər arasında öz xüsusi və strateji əhəmiyyəti ilə seçilir.

Prezident İlham Əliyev təbrikində infrastruktur layihələrimizin icrası və mövcud infrastrukturun qorunması üçün peyklərin böyük əhəmiyyətinin olduğu vurğulanmış, kənd təsərrüfatının inkişafı, ekoloji vəziyyətə nəzarət, torpaqlardan səmərəli şəkildə istifadə edilməsi – bütün bu işlərdə "Azersky" müşahidə peykinin xüsusi rolu açıqlanmışdır.

Beləliklə, Azərbaycan dövləti daha bir tarixi zəfərə imza atdı. Prezident İlham Əliyevin dediyi kimi, Azərbaycan qısa müddət ərzində dünyanın kosmik klubunun dəyərli üzvünə çevrilmişdir. Bu baxımdan müxtəlif regional layihələr və beynəlxalq əməkdaşlıq proqramlarında fəal iştirak edən Azərbaycan ən son peyk texnologiyalarına əsaslanan həll yollarının işlənib hazırlanmasında mühüm iştirakçıya çevrilmək niyyətindədir.

Məlumdur ki, rabitə və informasiya texnologiyaları sahəsinin Azərbaycan iqtisadiyyatının ən inkişaf etmiş sektoru olacağı gözlənilir. İKT-nin geniş tətbiqi ölkənin hərtərəfli inkişafına xidmət etməklə yanaşı, informasiya sahəsində milli təhlükəsizliyin təmin olunması baxımından da xüsusi əhəmiyyət kəsb edir. Ən əsası, Azərbaycanın əlverişli coğrafi mövqeyi Avropa və Asiya arasında genişspektrli informasiya mübadiləsinin stimullaşdırılmasına və müstəqil məlumat bazasının yaradılmasına kömək edəcək.

Əminliklə demək olar ki, ölkəmizin kosmik sənaye sektorunda əlamətdar hadisəyə çevrilən "Azerspace 2" peykinin istismara verilməsi Azərbaycanın milli kosmik texnologiyalarının daha da inkişafına yol açacaq və gündəlik həyatımıza nüfuz etməsi üçün yeni imkanlar yaranacaq. Prezident İlham Əliyevin rəhbərliyi ilə həyata keçirilən çoxspektrli kosmik sənaye siyasətinin də məqsədi məhz bundan ibarətdir.

***Səbuhi MƏMMƏDOV,***
***"Xalq qəzeti"***